# Mündəricat


01 2024/2025-ci il üzrə UNESCO-nun Qlobal Təhsil Monitorinq hesabatı

02 Avropa Komissiyasının 2024-cü il üzrə təhsil və təlim hesabatı

03 Çevik peşə və təlim standartları üçün effektiv bacarıq siyasətləri

# 2024/2025-ci il üzrə UNESCO-nun Qlobal Təhsil Monitorinq hesabatı

01

UNESCO tərəfindən 2024/2025-ci il üzrə Qlobal Təhsil Monitorinqi hesabatı yayımlanmışdır. Hesabata əsasən effektiv təhsil liderləri yalnız idarəçilər deyil, həm də transformativ dəyişiklik agentləri kimi çıxış edir. Bu liderlər təhsil sistemlərində strateji baxış formalaşdırır, əməkdaşlığı təşviq edir və sistemli təkmilləşdirmələri həyata keçirməyə şərait yaradır. Hesabatda bütün səviyyələrdə əhəmiyyət kəsb edən dörd əsas liderlik ölçüsü müəyyən edilmişdir:

**1. Gözləntilərin qurulması**

- Şagird nailiyyətlərinə fokuslanan ortaq vizyon, missiya və məqsədlərin yaradılması və onların effektiv kommunikasiyasını təmin etmək.
- İşçi qrupları və şagirdlər üçün yüksək performans standartlarının müəyyən edilməsi və nümunəvi davranışların sərgilənməsi.
- Mövcud məlumatlara əsaslanan qərarların qəbulu.

**2. Öyrənməyə diqqət yetirmək**

- Tədris təcrübəsinə nəzarət edilməsi və inkişaf etdirilməsi.
- Resursların kurikulum məqsədlərinə uyğun şəkildə yönləndirilməsi və işçilərin diqqətini yayındıran məsələlərdən qorunması.
- Şagird irəliləyişlərini izləyərək tədris strategiyalarının optimallaşdıril-ması.

**3. Əməkdaşlığı təşviq etmək**

- Müsbət məktəb mədəniyyəti və təhlükəsiz mühitin yaradılması.
- Müəllimlər arasında komanda işinin təşviqi və valideynlərlə, icmalarla qarşılıqlı əlaqələrin gücləndirilməsi.
- Resursların strateji şəkildə idarə edilməsi və risklərin azaldılması.

**4. İnsanların inkişafını dəstəkləmək**

- Müəllimlərin peşəkar inkişafını və mentorluğu dəstəkləmək.
- Müəllim performansını qiymətləndirmək, mükafatlandırmaq və konfliktləri effektiv idarə etmək.
- Lider olaraq etimad qazanmaq və hər zaman əlçatan olmaq.

**Dayanıqlı İnkişaf Məqsədləri (SDG)4 Qiymətləndirmə Kartı və Milli Hədəflər**

Hesabatda SDG4 Qiymətləndirmə Kartının ölkələrin 2025 və 2030-cu illər üçün milli hədəflər, meyarlar üzrə irəliləyişlərini illik əsasda nəzərdən keçirdiyi qeyd edilir. İndiyədək ölkələrin 77%-i ən azı bir hədəf dəyəri müəyyən etmişdir. Karib Dənizi İcması və Avropa İttifaqına üzv ölkələrin daha 7%-i isə regional səviyyədə meyarlar müəyyənləşdirmək öhdəliyi götürmüşdür. Ümumilikdə, ölkələrin 2025 və 2030-cu illər üzrə mümkün hədəf dəyərlərinin 54%-ni müəyyən etməsi qənaətbəxş nəticə kimi qiymətləndirilir. Bu nəticə yüksək gəlirli ölkələrin bir çox göstərici üzrə artıq yüksək dəyərlərə (100%-ə yaxın) malik olması ilə izah edilir. Belə ki, bu ölkələr üçün yeni hədəflər müəyyən etməyə ehtiyac azalmışdır.

**Ən yüksək və ən aşağı iştirak nisbətləri**

- **Ən çox meyar təqdim edilmiş göstəricilər:**
  - Erkən uşaqlıq təhsili iştirak nisbəti (72%).
  - Yuxarı orta təhsil tamamlama nisbəti (70%).
- **Ən az meyar təqdim edilmiş göstəricilər:**
  - Yuxarı orta təhsil tamamlama göstəricisi üzrə gender fərqi (36%).
  - Məktəb internet bağlantısı üzrə yeni göstərici (33%). Bu göstərici Təhsilin Transformasiyası Sammitindən sonra əlavə edilmişdir.

**SDG4 üzrə İrəliləyişlər**

2024-cü il üçün hazırlanan SDG4 Qiymətləndirmə Kartı 2025 və 2030-cu illərə qədər səkkiz əsas SDG4 göstəricisi üzrə irəliləyişi qiymətləndirmişdir. Bu göstəricilər üzrə ölkələrin 84%-i milli hədəflər müəyyən etmişdir. Bundan əlavə Təhsilin Transformasiyası Sammitində qəbul edilən qərar əsasında internet bağlantısı göstəricisi də SDG4 göstəricilərinə əlavə edilmişdir. Bu da rəqəmsal infrastrukturun təhsil sistemlərində əhəmiyyətini artırır.



## 2025-ci ildə SDG Qlobal göstəricilərinin icmalı

2025-ci ildə SDG qlobal göstəricilərinin əhatə dairəsinə yönəlmiş hərtərəfli icmalı həyata keçiriləcək. Belə ki, əhatə dairəsi 40%-dən aşağı olan göstəricilər yeniləri ilə əvəzlənəcəkdir. Ən riskli göstəricilərdən biri funksional savadlılıq və riyazi bacarıqların göstəricisi (4.6.1) hesab edilir ki, bunun da gənclər və böyüklər üçün ümumi savadlılıq göstəricisi ilə əvəzlənməsi planlaşdırılır.

## Liderliyin təhsildə əhəmiyyəti

Hesabatda qeyd olunur ki, məktəb direktorları təhsil sistemlərində mühüm rol oynayır və şagird nəticələrinə təsir baxımından müəllimlərdən sonra ikinci ən önəmli faktordur. ABŞ-də aparılan araşdırmalara görə, rəhbərlik müdaxilələri təhsil nəticələrindəki fərqlərin 27%-ə qədərini təşkil edir. Lakin orta gəlirli ölkələrdə məktəb direktorları ciddi problemlərlə üzləşir. Onların vaxtının 68%-i gündəlik inzibati işlərə sərf olunur ki, bu da, strateji planlaşdırma və vizyona fokuslanmaq üçün məhdud imkan yaradır. Gender bərabərsizliyi isə məktəb rəhbərliyində başqa bir əhəmiyyətli problemdir; müəllimlərin əksəriyyəti qadın olsa da, onlar direktor kimi kifayət qədər təmsil olunmurlar. Bununla belə, Frankofon Afrikada qadın direktorların şagirdlərin nəticələrinə, xüsusilə də savadlılıq və riyaziyyat sahəsində, kişi həmkarları ilə müqayisədə daha müsbət təsir göstərdiyi vurğulanır.

## Sistemli liderlik və regional təcrübələr

Sistemli liderlik siyasətlərin dizaynı ilə icrası arasında körpü rolunu oynayır və əhəmiyyətli təhsil islahatlarının həyata keçirilməsində mühüm rola malikdir. Meksikanın Puebla şəhərində sistem liderlərinin əlaqəli səyləri tədris nəticələrində uğurlu irəliləyişlərə nail olmaqda mühüm nümunə kimi qeyd olunur.

Avstraliya və Kanadada mərkəzləşdirilməmiş idarəetmə modelləri yerli təhsil rəsmilərinə müxtəlif ehtiyaclara uyğun həllər tətbiq etmək üçün geniş səlahiyyət verir. Bunun əksinə olaraq isə Yəməndə davam edən münaqişə liderliyi pozur, regional fərqlər yaradır və milyonlarla insanın təhsilə çıxışını məhdudlaşdırır.

## Siyasi liderlik və təhsildə gender bərabərzisliyi

Siyasi liderlik təhsil sistemlərinə əhəmiyyətli təsir göstərir, lakin ciddi çətinliklərlə üzləşir. Belə ki, təhsil nazirlərinin qısa səlahiyyət müddəti (orta hesabla iki il) və yalnız 23%-nin müəllimlik təcrübəsinə malik olması uzunmüddətli islahatların həyata keçirilməsini çətinləşdirir. Buna baxmayaraq, qadın siyasi liderlərin təhsil xərclərini artırmaq və prioritetləşdirməkdəki rolu vurğulanır. Norveç və İsveçdə qadın liderlər inklüziv siyasətlərin inkişafına töhfə verir, lakin regional münaqişələr bu cür səyləri təhlükə altına qoyur.

## Paylaşılan liderlik və əməkdaşlıq yanaşmaları

Paylaşılan liderlik müəllimlərin, valideynlərin və şagirdlərin qərar qəbuletmə proseslərinə cəlb edilməsini gücləndirir və təhsil nəticələrini yaxşılaşdırır. Taylandın Bambuk Məktəbində şagirdlərin qərar qəbuletmə proseslərinə cəlb edilməsi, Çilidə kurikulum islahatlarını irəli aparan yerli şagird hərəkatları və Finlandiyada inklüziv qərar qəbul etmə ənənəsi effektiv əməkdaşlıq modellərinin uğurlu nümunələridir.

Cari hesabatda, qlobal səviyyədə 251 milyon uşağın, yeniyetmə və gəncin təhsildən kənarda olduğu bildirilir. Bu rəqəm 2015-ci ildən bəri cəmi 1% azalma ilə müşayiət olunur ki, bu da təhsil sahəsində irəliləyişlərin hələ də yavaş tempdə getdiyini göstərir. İnkişaf etməkdə olan ölkələrdə uşaqların 75%-nin 10 yaşına qədər sadə mətni oxuya bilməməsi isə təhsil sahəsindəki ciddi çatışmazlıqlara işarə edir. Məktəbdən kənarda qalma göstəriciləri gəlir səviyyəsinə görə əhəmiyyətli fərqlər nümayiş etdirir: aşağı gəlirli ölkələrdə bu göstərici 33%, aşağı-orta gəlirli ölkələrdə 19%, yuxarı-orta gəlirli ölkələrdə 8%, yüksək gəlirli ölkələrdə isə cəmi 3%-dir.

Həmçinin məktəbdən kənarda qalma ilə müqayisədə təhsili tamamlama göstəricilərində daha sürətli irəliləyiş müşahidə olunduğu da hesabatda öz əksini tapır. 2015–2023-cü illər arasında qlobal ibtidai təhsil tamamlama nisbəti 85%-dən 88%-ə, aşağı orta təhsil 74%-dən 79%-ə, yuxarı orta təhsil isə 53%-dən 59%-ə yüksəlmişdir. Saxaraaltı Afrikada yaş həddi ilə uyğun olmayan şagirdlərin yüksək faizi diqqət çəkir.



Belə ki, ibtidai məktəbdə şagirdlərin 26%-i, aşağı orta təhsildə isə 35%-i yaş həddi ilə qeyri-uyğundur. Təhsilin vaxtında tamamlanması göstəriciləri isə daha problemlidir: yalnız 67% şagird təhsili vaxtında tamamlayır. Lakin gecikmiş tamamlama halları nəzərə alındıqda bu göstərici 78%-ə yüksəlir.
Həmçinin hesabatda münaqişələrin təhsil iştirakını əhəmiyyətli dərəcədə pozması da vurğulanır. Beş əsas böhran üzrə aparılmış tədqiqatlar məktəbdən kənarda qalanların sayının ən azı 5,5 milyon nəfər daha az ola biləcəyini göstərir. Baxmayaraq ki, hər iki ölkə eyni səviyyədən başlamışdır. Lakin Toqoda ibtidai təhsil tamamlama nisbəti Yəmənlə müqayisədə dörd dəfə daha sürətlə artmışdır. Qlobal səviyyədə ibtidai təhsilin sonunda yalnız 58% şagird oxu, 44% isə riyaziyyat üzrə minimal bacarıqlara malikdir. PISA tərəfindən aparılmış təhlillər 2012–2022-ci illər arasında aşağı orta təhsil səviyyəsində oxu bacarıqlarının 12%, riyaziyyat bacarıqlarının isə 6 % azaldığını göstərir.
Son on ildə, xüsusilə Afrikada 3 yaşdan kiçik uşaqlar üçün erkən uşaqlıq təhsili (ECE) iştirak səviyyəsində müsbət irəliləyişlər qeydə alınsa da hələ də 3-5 yaşlı uşaqlar arasında qeydiyyatda durğunluq mövcuddur. Rəsmi ibtidai təhsilə başlama yaşından bir il əvvəl qeydiyyat göstəricisi təxminən 75%-də sabit qalmışdır. Şimali Afrika, Qərbi Asiya və Saxaraaltı Afrika kimi inkişafdan geri qalmış regionlarda yalnız qismən irəliləyişlər müşahidə edilmişdir.
Bir çox uşaq rəsmi yaşdan əvvəl ibtidai təhsilə başladığı faktı da hesabatda qeyd olunur. Məsələn, Burundidə ibtidai təhsilə başlama yaşı 7 olsa da, 6 yaşlı uşaqların 90%-i məktəbəqədər proqramlar əvəzinə birbaşa ibtidai məktəbdə təhsil alır. Bu vəziyyəti nəzərə alaraq, belə uşaqların məktəbəqədər təhsil göstəricilərindən çıxarılması qlobal qeydiyyat səviyyəsini təxminən 20% azalda bilər.
Qlobal səviyyədə böyüklərin yalnız 3%-i rəsmi, qeyri-rəsmi təhsil və təlimdə iştirak edir. 106 ölkədən yalnız 15-də bu göstərici 10%-dən çoxdur ki, həmin ölkələr isə əsasən yüksək gəlirli ölkələrdir. 2015-ci ildən bəri böyüklərin təhsildə iştirak göstəriciləri 0,5 % azalmışdır. Bu azalmanın bir hissəsi COVID-19 pandemiyasının təsiri ilə əlaqələndirilir. Bununla yanaşı, gender fərqlilikləri də mövcuddur: yüksək gəlirli ölkələrdə hər 100 qadına 73 kişi iştirak etdiyi halda, aşağı gəlirli ölkələrdə hər 100 kişiyə yalnız 50 qadın iştirak edir. Bu rəqəmlər gender balansını təmin etmək üçün əlavə tədbirlərin vacibliyini göstərir.
2010–2023-cü illər arasında peşə təhsili (TVET) proqramlarına qeydiyyat nisbətən artmışdır. Bununla belə, gender bərabərsizliyi hələ də qalmaqdadır. Belə ki, kişilər TVET proqramlarında üstünlük təşkil edir. Bu vəziyyət ali təhsil sistemlərindəki gender göstəriciləri ilə uyğunsuzluq nümayiş etdirir. Çünki qadınlar ali təhsil müəssisələrində kişiləri əhəmiyyətli dərəcədə üstələyir. Qlobal səviyyədə ali təhsil üzrə ümumi qeydiyyat nisbəti 2010-cu ildəki 30%-dən 2023-cü ildə 43%-ə yüksəlmişdir. Ən sürətli artım Latın Amerikası, Karib hövzəsi, Şərqi və Cənub-Şərqi Asiyada qeydə alınmışdır.
İKT bacarıqları üzrə dünya miqyasında əhəmiyyətli fərqlərin mövcudluğu hesabatda qeyd olunur. Yüksək gəlirli ölkələrdə böyüklərin 80%-i əlavə ilə e-poçt göndərə bilirsə, orta gəlirli ölkələrdə bu göstərici yalnız 32%-dir. Kompüter proqramlaşdırma bacarıqlarında isə yüksək gəlirli ölkələrdə böyüklərin 7%-i, orta gəlirli ölkələrdə isə yalnız 2%-i bir proqram yaza bilir. Həmçinin yeni rəqəmsal bacarıqlar sahəsində də ciddi fərqlər mövcuddur. Belə ki, yüksək gəlirli ölkələrdə böyüklərin 45%-i cihazlarda təhlükəsizlik tədbirləri qura bilirsə, orta gəlirli ölkələrdə bu göstərici yalnız 7%-dir. Onlayn məlumatların etibarlılığını yoxlama bacarığında isə uyğun olaraq 23% və 10% fərqi müşahidə olunur. Vurğulanır ki, bu sahədə gender bərabərsizliyi hələ də qalmaqdadır. Qlobal səviyyədə hər 100 kişiyə qarşı yalnız 84 qadın cədvəl formulaları ilə işləməyi, 83 qadın isə onlayn məlumatların etibarlılığını yoxlamağı bacarır. Bu fərqlər rəqəmsal təhsilə və resurslara çıxışdakı struktur bərabərsizliklərinin olduğunu əks etdirir.
Qlobal səviyyədə məktəbdən kənarda qalma göstəricilərində gender bərabərliyi təmin edilmiş olsa da regional fərqliliklər mövcuddur. Şərqi və Cənub-Şərqi Asiya, Avropa, Şimali Amerika, Latın Amerikası və Karib hövzəsində məktəbdən kənarda qalan oğlanların sayı qızlardan daha çoxdur. Latın Amerikası və Karib hövzəsində hər 100 qız üçün məktəbdən kənarda qalan oğlanların sayı 2015-ci ildə 107-dən 2023-cü ildə 113-ə yüksəlmişdir. Bunu əksinə, Şimali Afrika, Qərbi Asiya, Okeaniya və Saxaraaltı Afrikada isə məktəbdən kənarda qalan qızların sayı daha çoxdur. Lakin 2015-ci ildən bəri bu fərqlər əhəmiyyətli dərəcədə azalmışdır.

Beynəlxalq Təhsil İcmalı
Dekabr 2024



Dünya üzrə savadlılıq səviyyəsi artmaqda davam edir. Gənc nəsillər yaşlı nəsillərə nisbətən daha yüksək savadlılıq göstəricilərinə malikdir. Məsələn, Mozambikdə böyüklər arasında savadlılıq səviyyəsi 56%, yaşlı əhali arasında isə bu göstərici 29%-dir. Gender, gəlir və məkan fərqlilikləri zamanla azalır. Nepalda yaşlı qadınların savadlılıq səviyyəsi hər 100 kişiyə 24 qadın təşkil edir. Lakin 15-24 yaşlılar arasında gender bərabərliyi təmin edilmişdir. Bununla belə hesabatda qeyd olunur ki, hətta yüksək savadlılıq göstəricilərinə malik ölkələrdə də bərabərsizliklər davam etməkdədir. Məsələn, Peruda böyüklərin 95%-i savadlıdır, lakin kənd qadınlarının yalnız 78%-i bu səviyyəyə çatmışdır.

UNESCO və Qlobal Təhsil Monitorinqi Hesabatı qrupu, iqlim dəyişikliyi təhsili sahəsindəki irəliləyişləri izləmək məqsədilə 76 ölkədən 1500 tədris proqramını təhlil etmişdir. Bu təhlil nəticəsində 3 əsas mövzu - ətraf mühit və dayanıqlılıq, iqlim dəyişikliyi və biomüxtəliflik - üzrə 35 əsas açar söz müəyyən edilmişdir. Araşdırmalar göstərir ki, sinif səviyyəsi artdıqca tədris proqramlarında “yaşıl” mövzuların əhatə dairəsi artır. Məsələn, 3-cü sinif sosial elmlər proqramlarında “yaşıl” mövzuların olmaması 34% təşkil etdiyi halda, bu göstərici 6-cı sinifdə 21%-ə, 9-cu sinifdə isə 16%-ə enmişdir.

Bundan əlavə, “yaşıl” mövzularla bağlı istinadların daha çox tədris proqramlarında əks edildiyi, milli kurikulum çərçivələrində isə bu mövzulara daha az yer ayrıldığı aşkar edilmişdir. İstinad sıxlığının yuxarı siniflərdə və təbiət elmlərində sosial elmlərə nisbətən daha çox olduğu müəyyən edilmişdir. Məsələn, 6-cı sinifdə Boliviya Çoxmillətli Dövləti, Mavriki və Koreya Respublikası, doqquzuncu sinifdə isə Marşall Adaları, Mavriki və İsveçrə öz tədris proqramlarında “yaşıl” məzmun istinadlarının ən yüksək sıxlığına malik olmuşdur.

Məktəb qidalanma proqramları şagirdlərin rifahı və təhsil nailiyyətləri üçün mühüm əhəmiyyət daşıyır. 2022-ci ildə dünya üzrə 418 milyon uşaq məktəb yeməyi almışdır. Təklif edilən tematik göstəricilər bu proqramların effektivliyinin artırılması və daha dəqiq monitorinqinə imkan yaradaraq, onların genişləndirilməsinə şərait yarada bilər.

Beynəlxalq tələbə təqaüdləri və təhsilə ayrılan rəsmi inkişaf yardımı (ODA) 2022-ci ildə 4,6 milyard dollara çatmışdır ki, bu, 2015-ci ildən bəri 31%-lik artımı əks etdirir. 2022-ci ildəki xərclər hələ də 2019-cu il səviyyəsindən aşağıdır. Fransa və Almaniya bu sahədə ən böyük donorlar olaraq qalır. Rumıniya, Qətər, Səudiyyə Ərəbistanı və Türkiyə kimi yeni donorlar da təqaüdlərə dəstəklərini artıraraq, ümumi təqaüd yardımlarının 9%-ni təmin etmişdir.

UNESCO-nun 2024/2025 Qlobal Təhsil Monitorinqi Hesabatı qlobal təhsil sistemlərində irəliləyişləri və mövcud problemləri ortaya qoyur. Təhsildə qeyri-bərabərlik, maliyyə çatışmazlığı və liderlik boşluqları Dayanıqlı İnkişaf Məqsədi 4-ə (SDG 4) çatmaq üçün əsas maneələrdir. Hesabat göstərir ki, strateji liderlik, resursların balanslı bölgüsü və inklüziv yanaşmalar təhsil sistemlərinin inkişafını sürətləndirə bilər. Təhsildə innovasiyaların tətbiqi və əməkdaşlıq yolu ilə bərabər və dayanıqlı bir gələcək təmin edilə bilər.

Mənbə: UNESCO. 2024. Global Education Monitoring Report 2024/5: Leadership in education – Lead for learning. Paris, UNESCO.

## Avropa Komissiyasının 2024-cü il üzrə təhsil və təlim hesabatı

Avropa Komissiyası tərəfindən “2024-cü il təhsil və təlim hesabatı” adlı illik hesabat dərc olunmuşdur. Hesabatda Avropa İttifaqı ölkələrinin təhsil və təlim məqsədlərinə nailolma prosesi nəzərdən keçirilir və dayanıqlılıq üçün tədris prioritet sahə kimi vurğulanır.

Dayanıqlı təhsil öyrənənlərin tənqidi analiz edə bilməsi, qlobal problemlərə uyğunlaşması, eləcə də yaşıl keçidə, dayanıqlı gələcəyin qurulmasına töhfə verə bilməsi üçün zəruri biliklər və bacarıqlarla təmin edilməsini hədəfləyir, həmçinin fərdi və kollektiv fəaliyyət üçün məsuliyyət hissinin inkişafını təşviq edir. Burada əsas məqsəd ekosistemlərin qorunması, nəsillərarası ədalət və bərabərliyin təşviqinə yönəlmiş təşəbbüsləri dəstəkləməkdir. Belə ki, dayanıqlılıq təhsili yalnız mövcud ekoloji problemlərin həllinə deyil, gələcək nəsillərin daha ədalətli və balanslı bir dünya qurmaq üçün lazımi bilik və vasitələrlə təchiz edilməsinə istiqamətlənmişdir.

Dayanıqlılıq məsələsində məlumatlılıq və fəaliyyət arasında əhəmiyyətli bir boşluq olduğu hesabatda qeyd edilir. Belə ki, gənclərin 83,6%-i dayanıqlılığı dəyərləndirdiyi və ekoloji cəhətdən səmərəli davranışların əhəmiyyətini bildiyi halda, bunların yalnız 29,8%-nin bu dəyərləri gündəlik həyatlarına fəal şəkildə tətbiq etdiyi hesabatda əks olunur.

Dayanıqlılıq məsələsində məlumatlılıq artsa da Avropa İttifaqında əsas dayanıqlılıq təhsili üzrə əhəmiyyətli fərqlər müşahidə olunur. Belə ki, Danimarka bilik səviyyəsində liderlik etdiyi halda, Bolqarıstan bu səviyyə üzrə aşağı nəticə göstərir. Eyni zamanda Aİ üzrə dayanıqlı kompetensiyaların tədris proqramlarında əhatə olunmasında əhəmiyyətli boşluqların olması da hesabatda öz əksini tapır. Bir çox təhsil sistemi dayanıqlılığı müəyyən dərəcədə tədris proqramına daxil etsə də mürəkkəbliyi anlamaq (sistemli düşüncə), gələcəyi təsəvvür etmək (gələcək savadlılığı) və dayanıqlılıq üçün hərəkət etmək (fərdi və kollektiv fəaliyyət, siyasi təşəbbüskarlıq) kimi vacib sahələrin tez-tez diqqətdən kənar qaldığı hesabatda vurğulanır.

Gələcək savadlılığı, tələbələrdə dayanıqlı gələcəyi proqnozlaşdırmaq və formalaşdırmaq, eyni zamanda laqeydlik və ekoloji narahatlıq kimi problemlərlə mübarizə aparmaq bacarığının formalaşmasına kömək edir. Bununla belə dayanıqlı təhsil sahəsində bu istiqamətə ən az diqqət yetirilməsi tələbələrin mürəkkəb sosial-ekoloji problemləri effektiv şəkildə idarəetmə və onların həlli üçün zəruri olan bacarıqlar qazanmasını məhdudlaşdırır.

Hesabatda erkən uşaqlıq təhsilinin və Avropa İttifaqı üzrə 3 yaşdan icbari təhsilin başlanğıcına qədər olan uşaqlar üçün iştirak səviyyəsinin 2022-ci ildə 93,1%-ə çatdığı qeyd olunur. Bildirilir ki, erkən uşaqlıq təshili üzrə Portuqaliya, Litva kimi ölkələr islahatlar vasitəsilə böyük irəliləyiş əldə etsə də kiçik yaşlı uşaqlar və sosial statusu aşağı ailələrdən olan uşaqlar arasında boşluqlar mövcuddur. Belə ki, bu qruplar arasında iştirak nisbətində 15,8 faizlik fərq qeydə alınıb.

Hesabatda həmçinin təhsil nailiyyətlərində mövcud problemlər də vurğulanır. Qeyd olunur ki, məktəbi erkən tərketmə halları 9,5%-ə qədər azalsa da sosial-iqtisadi cəhətdən imtiyazlı təhsilalanlar, Aİ-yə üzv olmayan miqrantlar (23%) və fiziki məhdudiyyətləri (22,2%) olan şəxslər arasında ciddi fərqlər hələ də qalır.  Bildirilir ki, valideynlərin təhsil səviyyəsi, sosial-iqtisadi status üçün əsas göstərici hesab olunur. Belə ki, valideynləri aşağı təhsil səviyyəsinə malik olan səkkizinci sinif şagirdləri, yüksək təhsilli valideynləri olan həmyaşıdlarından orta hesabla 76.3 bal aşağı nəticə göstərir (458,5 və. 534,7). Bu fərq bəzi ölkələrdə 100 balı ötür: Slovakiyada (143,5), Polşada (125,3), Sloveniya (120,1), Litva (109,5) və İsveçdə (108,5).

Hesabatda qeyd olunur ki, fərdi təhsil planları davamiyyəti artırmaq üçün tədbirlər və tələbə rifahı təşəbbüslərini əhatə edir. Bəzi ölkələr erkən məktəbdən çıxmanın qarşısını almaq üçün risk altında olan təhsilalanların monitorinqi və onlara dəstək xidmətlərinin göstərilməsi üzrə innovativ strategiyalar tətbiq edir.

O cümlədən hesabatda Peşə təhsili və təlim (VET) sahəsində irəliləyişlərin də olduğu vurğulanır. 2023-cü ildə peşə təhsilində karyera əsaslı öyrənmədə iştirak səviyyəsi 64,5%-ə çataraq, 2025-ci il üçün nəzərdə tutulan 60%-lik hədəfi üstələmişdir. Peşə təhsili üzrə məzunların işlə təmin olunma səviyyəsi 81%-lə rekord səviyyəyə çatmışdır. Almaniya, Avstriya və Niderland kimi ölkələr işlə təminat və karyera əsaslı təlim sahəsində liderlik edirlər.

02



Bununla belə peşə təhsilində sərhədlərarası mobillik hələ də problemlidir: tələbələrin yalnız 5,1%-i transsərhəd öyrənmə təcrübəsi əldə edir ki, bu da 2030-cu il üçün nəzərdə tutulan 12%-lik hədəfdən uzaqdır.

Dayanıqlılığın inteqrasiyası sahəsində irəliləyişlər olsa da Aİ ölkələri arasında ciddi fərqlərin mövcudluğu da hesabatda yer alır. Aparıcı ölkələr yaşıl keçidə uyğun olaraq tədris proqramlarına yaşıl bacarıqlar əlavə etsə də bəzi ölkələr peşə təhsili sistemlərinə dayanıqlılığı daxil etməkdə gecikir.
Hesabatda ali təhsildə nailiyyətlər, öyrənmə mobilliyi və əmək bazarı tələblərinə uyğunlaşma məsələlərinə də diqqət yetirilir. Vurğulanır ki, ali təhsil nailiyyətləri artmaqda davam edir və 2023-cü ildə 25–34 yaşlılar arasında bu göstərici 43,1%-ə çatıb. Bu da Aİ-nin 2030-cu il üçün nəzərdə tutulan 45%-lik hədəfinə yaxınlaşdığını göstərir. Buna baxmayaraq, ölkələr və sosial-iqtisadi qruplar arasında əhəmiyyətli bərabərsizliklər qalır. Lakin bir çox Aİ ölkələri ehtiyac əsaslı təqaüdlər, yaşayış üçün subsidiyalar, digər tədbirlər tətbiq edərək ədalətli girişi təşviq etsələr də bu tədbirlərin əhatə dairəsi və effektivliyi fərqli şəkildə həyata keçirilir.

Hesabatda 2023-cü ildə 25–34 yaşlılar arasında ali təhsil alma səviyyəsinin 43,1%-ə çatdığı qeyd olunur. Lakin əmək bazarının tələbatına baxmayaraq, informasiya və kommunikasiya texnologiyaları (İKT) kimi vacib sahələrdə iştirak səviyyəsində əhəmiyyətli dərəcədə artım müşahidə olunmur.
Ömürboyu təhsildə iştirak səviyyəsi 39,5%-dir və bu göstərici hədəflərdən xeyli aşağıdır.
Avropa İttifaqına üzv olan ölkələrin əksəriyyətində təhsil sistemlərinin dayanıqlılığın tədrisi üçün bütöv məktəb strategiyalarını təşviq etdiyi hesabatda qeyd olunur. Bu strategiyalara dayanıqlılığın məktəb inkişaf planlarına daxil edilməsi, müəllimlərin təlim keçməsi və davamlı təhsil mühitlərinin yaradılması daxildir. Lakin bu fəaliyyətlər tez-tez sistemli dayanıqlılıq problemlərini həll etmək əvəzinə tullantıların toplanması kimi aşağı təsirli tədbirlərlə məhdudlaşır. Dayanıqlı kompetensiyalar üzrə Avropa çərçivəsi olan GreenComp bilikləri, bacarıqları və münasibətləri təhsilin bütün səviyyələrinə inteqrasiya edərək, bu boşluqları aradan qaldırmağa yönəlib.
Ali təhsildə öyrənmə mobilliyi də narahatlıq doğurur: 2022-ci ildə tələbələrin yalnız 11%-i mobillik proqramlarında iştirak edib ki, bu da 2030-cu il üçün nəzərdə tutulan 23%-lik hədəfdən xeyli aşağıdır. Mobillik göstəricilərində ölkələr arasında əhəmiyyətli fərqlər mövcuddur.

Hesabatda böyüklərin təhsili sahəsində yenidən ixtisaslaşma və bacarıqların artırılması üzrə əsas məsələlərə də yer verilmişdir. Belə ki, məlumatlara görə böyüklərin təhsildə iştirakı 2022-ci ildə 39,5% olmuşdur ki, bu da Aİ-nin 2025-ci il üçün nəzərdə tutulan 47%-lik hədəfindən geri qalır. İştirak səviyyəsi ölkələr arasında ciddi fərqlər göstərir: İsveç 66,5%-lə liderlik edir, Bolqarıstan isə 9,5%-lə ən aşağı göstəriciyə malikdir.
Eyni zamanda hesabatda dayanıqlılığın böyüklərin təhsilinə daha geniş inteqrasiyası vurğulanır. Yeni tədris proqramları, infrastrukturun yaxşılaşdırılması və təlim imkanlarının genişləndirilməsi bu məqsədlərə xidmət edir.

Cari hesabat dayanıqlılıq təhsilindən əlavə təhsilin dözümlülük, rəqabət qabiliyyəti və sosial inklüzivlikdə daha geniş rolunu vurğulayır. Hesabat təhsilin Avropa İttifaqının Avropa Yaşıl Sazişi, rəqəmsal və demoqrafik keçidlər kimi prioritetləri ilə əlaqəsini göstərir. Təhsil sistemlərinin hər yaşda olan öyrənənlərə dayanıqlı, inklüziv və uyğunlaşan gələcək qurmaqda daha yaxşı dəstək verməsi üçün inkişaf etmiş monitorinq vasitələri, hədəflənmiş investisiyalar və ədalətə yönəlmiş yanaşmalar tövsiyə olunur.

Mənbə: European Commission. (2024). Education and Training Monitor 2024: Comparative report. Directorate-General for Education, Youth, Sport and Culture. https://op.europa.eu/etm

Beynəlxalq Təhsil İcmalı
Dekabr 2024

# Çevik peşə və təlim standartları üçün effektiv bacarıq siyasətləri

03

İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının (OECD) cari ayda “Çevik peşə və təlim standartları üçün effektiv bacarıq siyasətləri” adlı hesabatı təqdim edib. Hesabatda sürətlə dəyişən əmək bazarlarına uyğunlaşmaq məqsədilə çevik peşə və təlim standartlarının inkişaf etdirilməsi strategiyalarına dair araşdırmaların nəticələri əks olunmuşdur.
Yenilənmiş peşə və təlim standartları əmək bazarında mobilliyi artırır, bacarıq uyğunsuzluqlarını və işsizliyi azaldır. Eyni zamanda işəgötürənlər arasında innovasiya və rəqabət qabiliyyətini təşviq edir. Effektiv olmaq üçün peşə və təlim standartları bir neçə əsas meyara cavab verməlidir. Onlar mövcud və ortaya çıxan bazar tələblərinə uyğun olmalı, yeniliklərlə ayaqlaşmaq üçün vaxtında təkmilləşməli və iş fəaliyyətində kiçik tənzimləmələri qəbul edəcək qədər çevik olmalıdır.
Bunula yanaşı standartlar işə götürənlər, təlimçilər, siyasətçilər üçün əlçatan olmaq məqsədilə sadə və istifadəçi dostu olmalıdır. Eyni zamanda etimad, hesabatlılıq və uğurlu nəticəni təmin etmək üçün güclü keyfiyyət təminatı mexanizmlərinə malik olmalıdır. Bu əsasda hesabatda, effektiv peşə və təlim standartlarını müəyyən edən beş meyar vurğulanır.

**1) Əmək bazarı tələblərinə uyğunluq:**
- Peşə və təlim standartları əmək bazarının mövcud reallıqlarını əks etdirməli və müxtəlif sahələrdə gələcək bacarıq tələblərini proqnozlaşdırmalıdır;
- Meydana çıxan tendensiyaların və sənaye tələblərinin hərtərəfli təhlilinə əsaslanmalıdır.

**2) Vaxtında yenilənmə:**
- Standartların hazırlanması və yenilənməsi sürətlə dəyişən bazar şəraitinə uyğun şəkildə vaxtında həyata keçirilməlidir. Çünki, yeniləmələrdəki gecikmələr bacarıq boşluqlarını genişləndirə və mövcud standartların aktuallığını itirə bilər.

**3) Çeviklik:**
-Standartlar iş tapşırıqlarında və ya yeni texnologiyalarda kiçik dəyişikliklərə uyğun olaraq elastik olmalıdır.

**4) İstifadəçi dostluğu:**
- Standartlar işəgötürənlər, təlimçilər, siyasətçilər daxil olmaqla, müxtəlif istifadəçilər üçün əlçatan və asan anlaşılan olmalıdır. Aydın, anlaşılan, standartlaşdırılmış formatlar standartların praktik istifadəsini və təlim proqramları ilə müəssisələr arasında uyğunluğu artırır.

**5) Keyfiyyətin təminatı və nəzarət:**
- Standartların əmək bazarına uyğun, vaxtında və yüksək keyfiyyətli olmasını təmin etmək üçün effektiv mexanizmlər mövcud olmalıdır. Güclü keyfiyyət təminatı üçün şəffaf proseslər, hesabatlılıq və maraqlı tərəflərin etimadı əsas rol oynayır.

Hesabatda Flandriya, Fransa, Fransız dilində danışılan Belçika, Almaniya, İsveçrə və Birləşmiş Krallıqdan götürülmüş nümunələr vasitəsilə çevik bacarıq siyasətlərinin yaradılmasına dair müxtəlif yanaşmalar təqdim olunur.

**Flandriya**
Belə ki, Flandriyada peşə standartları Flamand Dövlət Məşğulluq Xidməti tərəfindən idarə olunan “Competent” səriştələr adlı verilənlər bazasında saxlanılır və Actiris, ADG, Bruxelles Formation və Forem kimi digər Belçika dövlət məşğulluq xidmətləri ilə əməkdaşlıq şəklində həyata keçirilir. Bu verilənlər bazasında əmək bazarının ehtiyaclarına uyğun və aktuallığını qorumaq üçün mütəmadi olaraq nəzərdən keçirilən, yenilənən peşə standartları yer alır. Yeniləmələr onlayn iş elanları daxil olmaqla, əmək bazarı məlumatlarının təhlilinə əsaslanır. Həmçinin, standartlar mövcud tendensiyaları və tələbləri əks etdirir. Baza 600 peşə, 4000 texniki bacarıq, 4000 bilik sahəsi və 26 yumşaq bacarığı ehtiva edir. Bacarıqlar "əsas" və "seçimli" olaraq təsnif edilir. Bu da iş tələblərinə uyğunlaşdırılmış təlimin təşkilini asanlaşdırır.

**Fransa**
Fransada peşə standartları ROME sistemi (Répertoire Opérationnel des Métiers et des Emplois) vasitəsilə təşkil olunur və “France Travail” adlı Fransanın Dövlət Məşğulluq Xidməti tərəfindən idarə edilir. ROME 4.0-a son keçid, əmək bazarının dəyişən tələblərinə daha yaxşı uyğunlaşmaq üçün bacarıq əsaslı yanaşmaya doğru əhəmiyyətli bir dəyişiklikdir.



ROME 4.0 sistemi 532 peşə təsvirini və bacarıqlara əsaslanan yanaşmanı özündə birləşdirir. Həmçinin, hesabatda qeyd olunur ki, bu sistem vasitəsilə gələcək planlar çərçivəsində peşə profillərinin sayı 2,500-ə qədər artırılacaq. Maraqlı tərəflərin iştirakını asanlaşdırmaq məqsədilə xüsusi onlayn platforma yaradılmışdır. Bu platforma sektor fondlarına, sosial tərəfdaşlara və təlim təminatçılarına yenilələmələr təklif etməyə, layihələri nəzərdən keçirməyə və France Travail tərəfindən hazırlanan profillərə rəy bildirməyə imkan verir.

**Fransız dilində danışılan Belçika** həm peşə, həm də təlim standartlarının yaradılması və yenilənməsi üçün ticarət və kvalifikasiya xidməti (Service Francophone des Métiers et des Qualifications, SFMQ) təşkilatını təsis etmişdir. SFMQ bütün prosesi idarə edir. Lakin layihələrin hazırlanması ekspert qruplarına həvalə olunur. İndiyə qədər 180-dən çox standart hazırlanmışdır ki, bu standartlar peşə vəzifələrini, əlaqəli bacarıqları və müvafiq təlim nəticələrini ətraflı təsvir edir. Standartların modul təlim vahidləri ilə inteqrasiyası ömürboyu öyrənmə imkanlarını təşviq edir. Müəyyən peşələr üzrə işəgötürənlər və uyğun təlim proqramlarını təklif edən təlim təminatçıları standartları birgə hazırlayırlar. Belə ki, birgə fəaliyyət peşə ehtiyacları ilə təlim məqsədləri arasında uyğunluğu təmin edir.

**Almaniya**

Almaniyanın peşə və təlim standartlarına yanaşması təlim qaydaları, ümumi tədris proqramları çərçivəsində həyata keçirilir. Eyni zamanda ətraflı strukturlar təqdim edir. Təqdim olunan strukturlar vəzifələri, tələb olunan bacarıqları və peşə təhsili çərçivələrini əhatə edir. Bu əsasda peşə və təlim standartlarının hazırlanması, yenilənməsi, təkmilləşdirlməsi üçün Federal Peşə Təhsili və Təlim İnstitutu (BIBB) güvənilir hesab olunur. Belə ki, bu standartlar geniş tədqiqatlara əsaslanır. Həmçinin, müxtəlif sənaye sahələri və bölgələr üzrə standartlaşdırılmışdır. Federal Peşə Təhsili və Təlim İnstitutu işəgötürənlər, həmkarlar ittifaqları və dövlət qurumları ilə əməkdaşlıq edərək, məzmunu əmək bazarının tələblərinə uyğunlaşdırır. Bu mərkəzləşdirilmiş yanaşma ölkə daxilində peşə təhsili və təliminin vahidliyini, uyğunluğunu təmin edir. İkiqat Peşə Təhsili Sistemi (Dual VET) təlim və sertifikatlaşdırmada vahidliyi təşviq edir. Təlim qaydaları müəyyən müddət (9–12 ay) çərçivəsində maraqlı tərəflərin əməkdaşlığı ilə hazırlanır.

**İsveçrə**

Hesabatda vurğulanır ki, İsveçrədə peşə və təlim standartları bütün bölgələrdə tətbiq olunan hüquqi məcburi qaydalar çərçivəsində birləşdirilir. Bu yanaşma uyğunluğu təmin etməklə, əmək mobilliyini təşviq edir. Təhsil, Tədqiqat və İnnovasiya üzrə Dövlət Katibliyi (SERI) standartların hazırlanması və yenilənməsi prosesinə nəzarət edir. Həmçinin federal standartlara uyğunluğu təmin etmək üçün bütün bölgələrin nümayəndələri prosesə cəlb olunur. Beləlliklə, bu yanaşma peşə ehtiyaclarını və təlim tələblərini vahid bir çərçivədə birləşdirir. 230 peşə üzrə vahid hüquqi qaydalar ölkə səviyyəsində uyğunluğu təmin edir və hər beş ildən bir müntəzəm yenilənir.

**Birləşmiş Krallıq**

Birləşmiş Krallıqda peşə və təlim standartları "Təcrübə və Texniki Təhsil İnstitutu"-nun (İnstitut for Apprenticeships and Technical Education, IfATE) rəhbərliyi ilə birgə hazırlanır. İşəgötürənlərin rəhbərlik etdiyi qabaqcıl (Trailblazer) qruplar standartların hazırlanması və yenilənməsində əsas rol oynayır. Eyni zamanda onların əmək bazarının tələblərinə uyğunluğunu təmin edir. 2021-2023-cü illər arasında 15 sektor üzrə 600-dən çox standart yaradılmışdır. Həmçinin təcrübə proqramlarına uyğunluğa xüsusi diqqət yetirilir.

Bununla belə, hesabatda bir sıra problemlərin mövcudluğu da qeyd olunur. Əsasən, bəzi bölgələrdə texnoloji yeniliklərə və bazar trendlərinə ləng uyğunlaşmanın peşə standartlarının aktuallığını azaltdığı vurğulanır. Belə ki, koordinasiyanın zəif olması işəgötürənlər, təlim müəssisələri və siyasətçilər də daxil olmaqla, müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığın təmin edilməsini çətinləşdirir. Bundan əlavə kiçik müəssisələrin standartların hazırlanmasında kifayət qədər təmsil olunmaması bu standartların inklüzivliyini zəiflədir və onların tətbiq imkanlarını məhdudlaşdırır.

Beynəlxalq Təhsil İcmalı
Dekabr 2024



Bu problemlərin həlli üçün hesabatda bir sıra məqsədyönlü tövsiyələr təqdim edilmişdir
1) Standartların idarə olunmasını mərkəzləşdirmək və maraqlı tərəflərin inteqrasiyasını təmin etmək (Flandriya və İsveçrə nümunəsində olduğu kimi).
2) Süni intellekt və əmək bazarı məlumatlarından istifadə edərək, real vaxt yeniləmələrini həyata keçirmək (Flandriya və Fransa təcrübəsinə əsaslanaraq).
3) Sənaye ilə birbaşa əlaqəni təmin etmək üçün işəgötürənlərin rəhbərlik etdiyi prosesləri təşviq etmək (Birləşmiş Krallığın Trailblazer qrupları nümunəsində olduğu kimi).
4) Peşə və təlim standartları arasında əlaqələri gücləndirərək, uyğunluğu təmin etmək.

Nəticə olaraq hesabatda vurğulanmış ən yaxşı təcrübələrin tətbiqi siyasətçilərə çevik, aktual və inkluziv peşə və təlim standartlarının formalaşdırılmasına imkan verə bilər. Bu yanaşma yalnız bacarıq uyğunsuzluqlarını azaltmaqla məhdudlaşmayacaq, eyni zamanda XXI əsrin çağırışlarına cavab olaraq, iqtisadi inkişafı və innovasiyanı təşviq edəcək.

Mənbə: OECD (2024), Agile Occupational and Training Standards for Responsive Skills Policies, Getting Skills Right, OECD Publishing, Paris, https://doi.org/10.1787/bacb5e4a-en.